**UOT 342-34**

# İNFORMASİYA SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ KİV-in ROLU

**Xalid Qüdrət oğlu NİYAZOV**

*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Hüquq və İnsan Haqları*
*İnstitutunun şöbə müdiri*

xalid-555@mail.ru

## XÜLASƏ

KİV informasiya mübadiləsini reallaşdırmaqla yanaşı, informasiya siyasətinin formalaşdırılıb həyata keçirilməsində də mühüm rol oynayır.

Azərbaycan Respublikasında dövlət informasiya siyasətinin əsas hədəflərindən biri də İKT-nin KİV-ə tətbiqi və dünya standartlarına uyğun inkişaf etdirilməsidir.

Media bir tərəfdən cəmiyyətin siyasi sistemini möhkəmləndirə, inkişaf etdirə, digər tərəfdən onu deformasiyaya uğrada, cəmiyyətə mənfi təsir edə bilər. Demokratik cəmiyyətlərdə media hakimiyyət və xalq arasında münasibətlərin ahəngdarlığını təmin edən əsas vasitəyə çevrilmişdir.

Dövlət informasiya siyasətində təşəbbüskarlıq, rasionallaşma və humanitar funksiyalar KİV vasitəsilə həyata keçirilir. Dövlət və KİV vacib politoloji institut və siyasi kommunikasiyanın əsas aktorları qismində cəmiyyətdəki siyasi prosesin mühüm iştirakçılarıdırlar.

**Açar sözlər:** dövlət informasiya siyasəti, informasiya cəmiyyəti, informasiya məkanı, siyasi sistem, sosial idarəetmə, informasiya qarşıdurması, informasiya siyasətinin funksiyaları

# THE ROLE OF THE MEDIA IN IMPLEMENTING THE INFORMATION POLICY

## SUMMARY

Mass media realize not only the process of information exchange, but also play a special role in the formation and implementation of the information policy.

One of the main objectives of the state information policy of the Republic of Azerbaijan is the use of modern ICT in the activities of the media and bringing their level of world standards.

It is generally known that on the one hand, the media can strengthen and develop the political system of society, and on the other hand subject it to deformation, to have a negative impact on society. In democratic societies, media have become a key tool for ensuring coherence between government and society.

Initiative, humanitarian and rational functions of the state information policy are also realized through the mass media.

The state and the media as the main actors of the political science institute and political communication are important participants in the political process.

**Keywords:** state information policy, information space, information society, politic system, social management, information confrontation, functions of information policy.

## РОЛЬ СРЕДСТВ МАССОВОЙ ИНФОРМАЦИИ В РЕАЛИЗАЦИИ ИНФОРМАЦИОННОЙ ПОЛИТИКИ

### РЕЗЮМЕ

Средства массовой информации реализуют не только процесс обмена информацией, но играют особую роль в формировании и претворении в жизнь информационной политики.

Одной из основных целей государственной информационной политики Азербайджанской Республики является применение современных ИКТ в деятельности СМИ и доведение их уровня до мировых стандартов.

Общеизвестно, что с одной стороны, медиа способны укрепить и развить политическую систему общества, а с другой – подвергнуть ее деформации, оказать негативное влияние на общество. В демократических обществах медиа стали ключевым инструментом обеспечения согласованности между правительством и обществом.

Инициативные, гуманитарные и рациональные функции государственной информационной политики также реализуются посредством средств массовой информации.

Государство и СМИ в качестве основных акторов политологического института и политической коммуникации являются важными участниками политического процесса.

**Ключевые слова:** государственная информационная политика, информационное общество, информационное пространство, политическая

система, социальное управление, информационное противостояние, функции информационной политики.

**Giriş.** Müasir qloballaşma dövründə dövlət cəmiyyətin maraqları naminə ardıcıl informasiya siyasəti yürüdür. Dövlət informasiya siyasəti şəxsiyyətin, cəmiyyətin və dövlətin balanslaşdırılmış maraqlarının məcmusunu müəyyənləşdirən informasiya sferasında milli maraqların müdafiəsini təmin etmək məqsədilə həyata keçirilir. İnformasiya siyasətinin formalaşmasında KİV müstəsna rola malikdir.

XXI əsrdə bəşəriyyət yeni sivilizasiya mərhələsinə – informasiya cəmiyyəti dövrünə qədəm qoymuşdur. İnformasiya cəmiyyətində informasiya həyati əhəmiyyətli məsələyə, insanların, sosiumun və bütövlükdə bəşəriyyətin şüurundakı obyektiv prosesi əks etdirən, saxlayan KİV isə onu bütün dünyaya yayan vasitəyə çevrilmişdir.

İnformasiya cəmiyyəti xalqların, ölkələrin bütöv informasiya məkanında birləşməsi üçün şərait yaradır. Müasir texnologiyanın imkanları sayəsində informasiyalaşma sivilizasiyanın inkişafına təkan verən amil kimi çıxış edir. KİV yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sayəsində ictimai həyatın hər hansı sahəsinə aid informasiyanı dünyanın hər bir nöqtəsinə çatdıra bilir. "Mətbuat ictimai həyatın çox mühüm tərkib hissəsidir. İctimai hadisələrin subyektləri öz fəaliyyətlərini ancaq informasiya mübadiləsi sayəsində əlaqələndirə bilirlər. Bu mübadilənin ən əsas formalarından biri isə mətbuatdır" (5, s.5).

***

KİV təkcə informasiya mübadiləsini deyil, informasiya siyasətini də həyata keçirir. Kütləvi informasiya-kommunikasiya vasitələrinin güclü dövlətlərin və nüfuzlu dairələrin əlində cəmləşməsi nəticəsində onların ictimai rəyə və siyasi təsisatlara təsir imkanları genişlənir. Müasir dövrdə informasiya üstünlüyünün, informasiyalaşmanın kimin inhisarında olmasından çox şey asılıdır. İnformasiyalaşmanın cinayətkar, terrorçu qrupların əlinə keçməsi fəlakətli nəticələrə gətirib çıxara, insanların təhlükəsizliyinə real və ciddi təhdidə çevrilə bilər.

Rus tədqiqatçısı V.V.Panferova "Müasir Rusiyanın informasiya siyasəti" əsərində dövlət informasiya siyasətinin strukturunun iki tərkib hissədən ibarət olduğunu göstərir: 1) texniki-texnoloji; 2) humanitar.

Texniki-texnoloji hissə – cəmiyyətin informasiyalaşması, İKT-nin, rabitə vasitələrinin tətbiqi, güclü informasiya-texnoloji infrastrukturun yaradılmasıdır. Dövlət informasiya siyasətinin humanitar tərkib hissəsi isə informasiyaların keyfiyyət və məzmunu ilə əlaqədardır. İnformasiya siyasətinin məhz bu tərəfi informasiyaların cəmiyyətin sosial-iqtisadi, mənəvi və siyasi proseslərinə bilavasitə təsirinin məzmun və xarakterini müəyyənləşdirir (9, s.61).

Müasir cəmiyyətdə demokratikləşmə və modernləşmə xeyli dərəcədə dövlət hakimiyyətindən, media vasitələrindən, həmçinin, onların arasındakı qarşılıqlı münasibətlərdən asılıdır. Bu qarşılıqlı əlaqələr cəmiyyət üçün mühüm əhəmiy-

yət kəsb etdiyindən, müxtəlif elm sahələri tərəfindən qeyd edilən məsələ üzrə aparılan araşdırmaların miqyası daim genişlənməkdədir. Bununla bağlı dünya praktikasında müəyyən konseptual yanaşmalar, araşdırmalar mövcuddur və onlar yeni tədqiqatlar hesabına daha da zənginləşirlər. Azərbaycanda da dövlət informasiya siyasəti və onun KİV-də işıqlandırılması formaları, bu institutlar arasında qarşılıqlı əlaqələrin öyrənilməsi müstəqillik əldə olunduqdan sonra yüksələn xəttlə inkişaf edir.

Bununla belə, təqdirəlayiq haldır ki, KİV və dövlət arasında qarşılıqlı faydalı münasibətlərin əsası qoyulmuşdur.

Dövlət informasiya siyasətinin həyata keçirilməsində mühüm rol oynayan müasir KİV informasiya cəmiyyətinə özünəməxsus şəkildə təsir edir. Öz növbəsində informasiya cəmiyyətinin KİV-ə təsiri aşağıdakılarla müəyyənləşdirilir:

- İqtisadiyyatın əmtəə istehsalından xidmətə istiqamətlənməsi. Bu şəraitdə jurnalistika qarşısında tələb bazarın informasiya və kommunikasiya sahələrinin idarə edilməsidir.

- Cəmiyyətin texnoloji və sosial-siyasi strukturlarının əsasları kimi biliklərin əhəmiyyətinin artması bilik yayımını təmin edən ictimai institutlara, yəni qlobal informasiya-kommunikasiya şəbəkələrinə və bu sahədə çalışan mütəxəssislərə ehtiyacı formalaşdırır. Belə olan təqdirdə jurnalistika bilik tədarükçüsü rolunu yerinə yetirir.

- Aparıcı “universitet”lərin (təhsil, elm) ictimai faktorun sistem generasiyası kimi formalaşması. Bu şəraitdə jurnalistika qarşısında tələb jurnalistikanın, sosial təhsil institutlarının məsuliyyət sferasına aktiv şəkildə əlavə edilməsidir. Jurnalistika sahəsində birbaşa interaktivlik, gələcəkdə əhəmiyyətli dərəcədə intellektual mülkiyyətin müdafiəsini təmin edəcək. Bu artıq müəyyən qədər baş verməkdədir (1, s.171).

Azərbaycan Respublikasında dövlət informasiya siyasətinin əsas hədəflərindən biri də İKT-nin KİV-ə tətbiqi və dünya standartlarına uyğun inkişaf etdirilməsidir. Bunun nəticəsidir ki, Azərbaycanda qəzetlərin elektron tipi və ya tipologiyası getdikcə genişlənməkdədir. Bu istiqamətdə ilk addımlar ötən əsrin 90-cı illərinin əvvəlində ənənəvi qəzetlərin elektron versiyasının yaradılması olmuşdur. İctimai rəyə təsir edən qəzetlər – “Xalq qəzeti”, “525-ci qəzet”, “Yeni Müsavat”, “Azərbaycan” və digər qəzetlər özlərinin elektron versiyalarını yaratdılar. 1990-cı illərin sonlarından isə elektron qəzetlərin ilk nümunələri meydana çıxdı.

İnformasiya cəmiyyətinin əsas amili olan informasiyanın həqiqiliyi və müasirliyi ictimai həyatın bütün sahələrinin inkişafına, informasiya siyasətinin gerçəkləşməsinə səbəb olur. Müasir informasiya idarəetmədə və qərar qəbuletmədə zəruri amilə çevrilmişdir. Professor C.Məmmədlinin yazdığı kimi: “Özünün inkişafı tarixində bir sıra inqilabi sıçrayışlar yaşayan, qəzet istehsalı, tirajlama texnikasının yaranması, daha sonra radio və televiziya möcüzələri və nəhayət, bu gün “On-line” anlayışı ilə ifadə edilən internet möcüzəsi ilə bəşəriyyətə

tarixi məqamlar yaşadan jurnalistika dünya informasiya sistemi adlanan internetlə bağlı özünün yeni dövrə, yeni eraya keçid mərhələsini yaşayır" (6, s.60).

Demokratik ənənələrin ümumdünya prosesinə çevrildiyi bir şəraitdə insanın siyasi, iqtisadi, sosial, hüquqları ilə yanaşı, informasiya hüququnun ciddi müdafiəsi zərurətə çevrilmişdir. Müasir informasiya cəmiyyətində, qlobal sosial inqilabın, informasiya texnologiyasının inkişafı dövründə informasiya mübadiləsi nə zaman, nə məkan, nə də siyasi hüdud tanıyır. Belə bir şəraitdə cəmiyyətdəki müxtəlif dövlət və qeyri-dövlət təsisatları, o cümlədən, KİV öz informasiya siyasətini yeridir. "Azərbaycanın müasir KİV sistemi xeyli dərəcədə formalaşmış və dünya təcrübəsinə inteqrasiya etmişdir. İnformasiya texnologiyalarının sürətli inkişafı ilə beynəlxalq aləmdə – müxtəlif ölkələrin işlək lüğət tərkibinə düşmüş "yeni jurnalistika", "yeni dönəm jurnalistikası", "yeni media", "mediologiya" və s. kimi anlayışlar Azərbaycan gerçəkliyi üçün də adiləşmişdir. Respublikamızın müstəqillik əldə etməsi və bununla da bazar münasibətlərinə keçməsi bütün sahələrdə olduğu kimi, jurnalistikada da özəl sektorun meydana gəlməsini şərtləndirmişdir. Bununla da kütləvi informasiya vasitələrinin çoxçeşidli tipoloji strukturu formalaşmışdır. Eyni zamanda, hər tip KİV faktının özünəməxsus informasiya siyasəti ortaya çıxmışdır" (8, s.180).

Bu gün ölkənin media güzərgahında yeritdiyi fərqli informasiya siyasətinə, elektoratının palitrasına görə fərqlənən mətbuat düşərgələşərək iqtidar, müxalifət və nisbətən müstəqil mətbuata ayrılıb. İqtidar KİV-i dedikdə "Xalq qəzeti", "Azərbaycan", "Respublika", "Yeni Azərbaycan", "Kaspi", "Səs", "İki sahil" və s., müxalifət KİV-i dedikdə fəaliyyətini saxlamış "Azadlıq" qəzeti, müstəqil mətbuat dedikdə isə "Yeni Müsavat", "Bizim yol", "Şərq", "525-ci qəzet", "Exo", "Bakı xəbər", "Ekspress" və azlıqda qalan digər nəşrlər nəzərdə tutulur. Bu KİV-lərin hər bir qrupunun öz informasiya siyasəti mövcuddur. Həmin qəzetlər qrupunda fəaliyyət göstərən yaradıcı kollektiv hər hansı bir informasiyaya, xəbərə formalaşan informasiya siyasəti nöqteyi-nəzərindən yanaşır. Məsələn, Azərbaycanın müasir inkişaf tempi iqtidar qəzetlərində obyektiv təqdim olunduğu halda, müxalifətyönlü qəzetlərdə mütləq nöqsanlı cəhətləri ilə verilir. Müstəqil qəzetlər isə mümkün qədər faktı olduğu kimi, şərhsiz çatdırmağa çalışırlar. Qəzetlərin informasiyaya bu fərqli cəhətlərini nəzərdə tutan ulu öndər Heydər Əliyev müstəqil KİV-nə daha çox önəm verməyi vacib sayırdı (4, s.495).

Prezident İlham Əliyevin bu fikirləri də xüsusi maraq doğurmaya bilməz: "Azərbaycanda sözün əsil mənasında, müstəqil mətbuata, KİV-lərə böyük ehtiyac vardır... Əminəm ki, normal, hüquqi, demokratik dövlətin qurulması işində müstəqil KİV-lərin çox böyük əhəmiyyəti var və bu əhəmiyyət getdikcə artır" (2, s.52-53).

İqtidaryönlü mətbuat orqanları müxtəlif dövlət hakimiyyət orqanları tərəfindən təsis edilmişlər. Belə KİV-lər dövlət orqanlarının fəaliyyəti ilə bağlı onların mövqeyini ifadə edən informasiyalar yayırlar. Özəl, xüsusi KİV cəmiyyətin müxtəlif təbəqələrinin, sosial qüvvələrinin və korporativ strukturların ma-

raqlarını təmsil edir. Bundan başqa müstəqil və ictimai KİV mövcuddur. İctimai KİV və yaxud dövlət-ictimai, ictimai-hüquqi KİV-i demokratiyanın informasiya təminatı tələblərinə daha uyğun gələn təsisat hesab edirlər.

Media bir tərəfdən cəmiyyətin siyasi sistemini möhkəmləndirə, inkişaf etdirə, digər tərəfdən onu deformasiyaya uğrada, cəmiyyətə mənfi təsir edə bilər. Demokratik cəmiyyətlərdə media hakimiyyət və xalq arasında münasibətlərin ahəngdarlığını təmin edən əsas vasitəyə çevrilmişdir. KİV müxtəlif təsisatları təmsil etdiyindən, bəzən onun dövlətin və cəmiyyət maraqlarını ifadə edə bilməməsi hallarına da rast gəlmək mümkündür.

KİV siyasi sistemin təsisatı, sosial idarəetmənin subyekti, dövlətin siyasi institutu kimi çıxış edir. Bu seqmentin cəmiyyətə, insanların şüuruna, siyasi proseslərə təsiri bəzən elə bir səviyyəyə çata bilir ki, analitikləri "mediokratiya" (KİV hakimiyyəti) dövrünün başlandığını söyləməyə sövq edir. Media gerçəkliyi yalnız əks etdirib şərh etmir, onu öz qaydalarına və maraqlarına uyğun müəyyən edir. Bu mənada, bəzi tədqiqatçılar KİV-in cəmiyyətə humanist təsirindən, digərləri isə mədəniyyətə və insanlara dağıdıcı təsirindən bəhs edirlər. KİV-in cəmiyyətə ziddiyyətli təsirinin qarşısını dövlət ala bilir. Totalitar rejimlərdə dövlət nəzarəti zorakılığa əsaslanır. Liberal ideologiya və demokratik prinsiplərə əsaslanan dövlətlərdə isə maraqların ahəngdarlığından, dövlətin özünün və KİV-nin fəaliyyətinin qarşılıqlı nəzarətindən söhbət gedir. KİV demokratiyanın amili kimi formalaşır.

Müasir dövrdə informasiyanın strateji əhəmiyyətinə görə insan və cəmiyyət həyatında əlahiddə mövqelərə sahiblənməsi, ilk növbədə, XX əsrin ortalarından etibarən informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə start götürmüş təkamül prosesləri ilə şərtlənir. Xüsusən də elektron kütləvi informasiya vasitələrinin, habelə qısa zamanda hiperinformasiya məkanına çevrilmiş internetin kosmik inkişaf tempi informasiyanın təkcə ictimai münasibətlər sistemində deyil, ümumən sosial-iqtisadi həyatın ən müxtəlif sahələrində – biznesdə, beynəlxalq iqtisadi və siyasi əlaqələrdə, elm və təhsildə, qlobal təhlükəsizlik məsələlərində rolunu görünməmiş dərəcədə gücləndirmiş, informasiyalı cəmiyyətə sürətli keçid prosesini təmin etmişdir.

Bu gün informasiya qiymətli əmtəə olmaqdan savayı, həm də bəşər sivilizasiyasının tarixən can atdığı demokratiya və vətəndaş cəmiyyəti kimi idealların inkişafına zəmin yaradır. Hər bir cəmiyyətdə sərbəst düşüncə tərzinin, şəffaflığın, siyasi plüralizmin, insan hüquq və azadlıqlarının, tolerantlığın mühüm amili kimi çıxış edir. Açıq, demokratik, şəffaf və sivil idarəetmə sisteminin yaradılması, ilk növbədə, cəmiyyətin azad, obyektiv, qərəzsiz informasiya almaq tələbatının ödənməsindən – hər bir fərdin söz, fikir, düşüncə və vicdan azadlıqlarının maksimum səviyyədə təminatından keçir. Bu hüquq və azadlıqlar açıq cəmiyyətin qurulmasını, siyasi plüralizmi şərtləndirməklə, insanların beynəlxalq konvensiyalar və digər normativ-hüquqi aktlarda təsbit edilmiş hüquqlarının etibarlı müdafiəsinə geniş imkanlar açır.

Dövlət informasiya siyasətinin funksiyaları da kifayət qədər çoxşaxəlidir. Onun təhsil funksiyası vətəndaşlarda KİV-dən aldıqları informasiyaları qiymətləndirməyə imkan verən biliklər yaradır. KİV vasitəsilə siyasi təhsil əldə edən, siyasi mədəniyyətini yüksəldən insanlar mürəkkəb, ziddiyyətli informasiya axınından baş çıxarmağa çalışır, onlarda fəal vətəndaş mövqeyi formalaşır. Siyasi mədəniyyəti yüksək olan insan dövlətçiliyin, sabitliyin möhkəmlənməsində əlindən gələni əsirgəmir, antihumanist ideya və metodların qarşısını alır. KİV siyasi maarifçilik fəaliyyəti ilə ölkədə bütün maraqlı qüvvələrin birliyini yaradır. İnsanı bütün ömrü boyu müşayiət edən mass-media onun siyasi və sosial informasiyanı qavramasına ciddi təsir edir.

Dövlət informasiya siyasətinin siyasi təhsil funksiyası sosiallaşma funksiyası ilə vəhdət təşkil edir. İnsanları bütün növ dəyər və normaları, o cümlədən siyasi dəyərləri qavramağa sövq edən sosiallaşma onların sosial-siyasi reallığa uyğunlaşmasını da təmin edir. Demokratik cəmiyyətlərdə KİV vasitəsilə ictimai şüurda qanunun aliliyinə, insan hüquqlarına, peşəkar əməyə, ictimai konsensusa hörmət hissləri formalaşır, vətənpərvərlik tərbiyə olunur.

Tənqid və nəzarət funksiyaları yalnız KİV deyil, müxalifət və xüsusi təsisatlar vasitəsilə həyata keçirilir. KİV-in tənqidi daha geniş xarakter alır. Mass-media siyasi liderləri, hakimiyyətin müxtəlif qollarını, dövlət siyasətini, islahatları, hətta özünü də tənqid edə bilər. Dövlət informasiya siyasətinin nəzarət funksiyası ictimai rəyə əsaslanır. Burada KİV nəzarəti daha səmərəli əhəmiyyət kəsb edir. KİV-də əksini tapan mənfi faktlara, tənqidi materiallara təkcə cəmiyyət deyil, hüquq-mühafizə orqanları və dövlət strukturları da reaksiya verir, nöqsanların aradan qaldırılması üçün ciddi tədbirlər görülür. Demokratik cəmiyyətlərdə bəzən müstəqil jurnalist tədqiqatları da aparılır. Nəticədə çap olunan tənqidi məqalələr əsasında parlament komissiyaları yaradılır, mühüm siyasi qərarlar qəbul edilir, hətta cinayət işləri qaldırılır.

Nəzarət funksiyası demokratik inkişaf yoluna qədəm qoymuş, dövlət nəzarət təsisatlarının peşəkarlığın çatışmadığı, müxalifətin yarımleqal fəaliyyət göstərdiyi ölkələrdə daha çox əhəmiyyət kəsb edir. Qeyri-dövlət, müxalifət KİV-nin mövcud olduğu cəmiyyətlərdə daha çox kəskin tənqidlər olur. Qeyri-dövlət KİV-in olmadığı cəmiyyətlərdə dövlət mediasının tənqidi minimal həddə olur. Belə cəmiyyətlərdə məmurlar dövlət maraqları adı altında öz maraqlarını həyata keçirirlər. Müstəqil, müxalifət KİV-in mövcud olmadığı yerlərdə dövlət mediası bütöv cəmiyyətin, xalqın maraqlarını tam ifadə edə bilmir.

KİV vasitəsilə həyata keçirilən dövlət informasiya siyasətinin funksiyalarından biri artikulyasiya və inteqrasiya funksiyasıdır. KİV-də müxtəlif ictimai maraqlar açıq-aşkar öz əksini tapır. Dövlət informasiya siyasəti insana nifrəti, milli, dini, irqi, ayrı-seçkiliyi, şovinizmi təbliğ edən qüvvələrdən başqa, hamıya öz rəylərini, ideyalarını, proqramlarını açıq ifadə etməyə imkan yaratmalıdır. Eyni zamanda, dövlət və qeyri-dövlət KİV-i tənqidçi funksiyasını yerinə yetirərkən obyektivliyə və sosial ədalətə söykənməlidir. Bir çox hallarda KİV-in

tənqidi münasibəti sosial ədalətin bərqərar olmasına xidmət edir. Təəssüflər olsun ki, Azərbaycan media məkanında və media təcrübəsində qəzetin tənqidi çıxışından sonra direktiv orqanlar tərəfindən hansısa radikal addımların atılması faktlarına nadir hallarda təsadüf olunur.

KİV və dövlət informasiya siyasəti xarici informasion-psixoloji təsirlərə, informasiya qarşıdurmasına, bir sözlə, informasiya müharibəsinə qarşı mübarizə aparmalı, onlara adekvat münasibət göstərməyi bacarmalıdır. Tədqiqatçıların fikrincə, XX əsrin sonlarında total müharibənin yeni növü olan "İnformasiya müharibəsi" bəşəriyyətin həyatına daxil olmuşdur. İnformasiya müharibəsinin əsas xüsusiyyətləri ondan ibarətdir ki, bu müharibədə əsas silah gizli xarakter daşıyan, rəqibin şüuruna yalançı informasiya və təbliğatla təsir etməklə onu dağıtmaq məqsədi güdən informasiyadır.

Tədqiqatçılar göstərirlər ki, informasiya qarşıdurmasını istər beynəlxalq arenada, istərsə də daxildə KİV yaradır. O siyasi maraqlar məkanına daxil olaraq hakimiyyətin diqqət mərkəzində dayanır. Elektron KİV-in meydana gəlməsi ilə insanların şüuruna medianın təsiri daha da artmışdır. Rusiya tədqiqatçısı V.V.Panferova göstərir ki, informasiya inhisarçılığının – yəni KİV-in iri şirkətlərin (media inhisar) hökmranlığına keçməsi artıq ümumdünya hadisəsinə çevrilmişdir. XX əsrin sonlarında ictimai həyatın sosial-iqtisadi, siyasi və mədəni sahələri inhisarçı informasiya kapitalının təsiri altına düşmüşdür. Hazırda KİV qlobal və milli qarşılıqlı təsir şəraitində işləyir (7, s. 265).

İnformasiya qarşıdurmasına hazır olan hər bir ölkə kompleks tədbirlər həyata keçirməlidir: əhaliyə vaxtında zəruri, tam, obyektiv informasiya verilməli, ictimai rəyin manipulyasiya imkanları aşağı salınmalı, informasiya-analitik fəaliyyət gücləndirilməlidir.

Azərbaycan rəhbərliyi söz və mətbuat azadlığı, fikir plüralizmi, ictimai həyatın ən müxtəlif sferalarına aid olan informasiyaların əlyetərliyini vətəndaşların fundamental hüquqları kimi qiymətləndirərək informasiya siyasəti sahəsindəki münasibətlərin tənzimlənməsinin hüquqi vəsiləsi kimi çıxış edən qanunvericilik bazasının təkmilləşdirilməsini həmişə diqqətdə saxlayır. Bu cür münasibətin məntiqi nəticəsidir ki, son illərdə KİV sahəsində aparılan dövlət siyasətinin dəyərləndirilməsində müsbət tendensiya özünü daha qabarıq göstərməyə başlamışdır. Belə bir tendensiya özünü yalnız qanunvericilik "təsərrüfatının" inkişafda olan həyatın tələblərinə uyğun dəyişməsində deyil, kifayət qədər üzdə olan maddi "preferensiyalarda" da ifadə edir.

Azərbaycan Prezidenti İlham Əliyev informasiya qarşıdurmasına hazır olmağı tövsiyə edir: "Azərbaycanda müqayisəolunmaz dərəcədə bir xırda məsələ baş verən kimi, dərhal beynəlxalq media orqanlarına çıxarılır. Azərbaycanı elə bil ki, antidemokratik ölkə kimi təqdim etməyə çalışırlar. Bu, bizə qarşı aparılan məqsədyönlü və ədalətsiz mübarizədir. Biz bu mübarizəyə hazırıq və bu mübarizəyə qarşı ancaq öz siyasətimizi, sözün yaxşı mənasında, inadkarlığımızı qoymalıyıq və qoyuruq ki, Azərbaycanın maraqlarını müdafiə edək" (3, s.39).

Dövlət informasiya siyasətində təşəbbüskarlıq, rasionallaşma və humanitar funksiyalar da KİV vasitəsilə həyata keçirilir. Təşəbbüskarlıq funksiyası sayəsində cəmiyyətdə insanlarda dövlət qərarları ilə uzlaşan ictimai rəy formalaşır. Rasionallaşma funksiyası nəticəsində ictimai rəyin köməyilə münaqişələr və ziddiyyətlər aradan qaldırılır. KİV ağıl və düşüncələrə təsir edərək informasiya məkanı subyektlərinin qarşılıqlı təsirinin hüquqi əsaslarının inkişafını, KİV-in rasional modelinin yaradılmasını təmin edir. Dövlət informasiya siyasətinin humanitar funksiyası insan üçün adekvat informasiya, sosiomədəni mühit yaratmaq, öz hüquq və azadlıqlarını reallaşdırmaq, ictimai qaydanı təmin etmək məqsədi güdür. İnformasiya siyasəti və KİV cəmiyyətin mənəvi həyatını inkişaf etdirməlidir.

Dövlətin informasiya siyasəti dedikdə, dövlət orqanlarının informasiya sektorunun inkişafına yönəlmiş tənzimləyici fəaliyyəti başa düşülür. İnformasiya sektoru telekommunikasiya, informasiya sistemlərini və kütləvi informasiya vasitələrini, habelə hər növ (işgüzar, əyləncəli, elmi-tədris, xəbər və sair) informasiyaların yaradılması, mühafizəsi, işlənilməsi, nümayişi, ötürülməsi ilə bağlı istehsalın və münasibətlərin məcmusunu əhatə edir.

Dövlətin informasiya siyasətinin əsas vəzifələrindən biri kütləvi informasiya vasitələrinin fəaliyyətində şəxsiyyət, cəmiyyət və dövlətin maraqlarının tarazlaşdırılmasına yönəlmiş hüquqi, iqtisadi, təşkilati və texnoloji tədbirləri müəyyənləşdirməsidir. Kütləvi informasiya vasitələrinin cəmiyyətin obyektiv məlumatlandırılması funksiyasını səmərəli yerinə yetirməsinə normal şərait yaradılması da bu siyasətin tərkib hissəsidir.

Dövlət orqanlarının fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması kütləvi informasiya vasitələrinin mühüm vəzifələrindən hesab olunur. Vətəndaşları iqtisadi islahatların gedişi, sosial məsələlərin həlli, ictimai və şəxsi həyatı tənzimləyən normativ-hüquqi aktlar haqqında obyektiv informasiya ilə təmin etmək zəruridir. Ona görə də dövlətin informasiya siyasəti ilə ictimai tənzimlənmə arasında tarazlıq yaradılmalı, informasiya cəmiyyəti və plüralizmin inkişafı xətti daha intensiv həyata keçirilməlidir (10).

**Nəticə.**

- Dövlət və KİV vacib politoloji institut və siyasi kommunikasiyanın əsas aktorları qismində cəmiyyətdəki siyasi prosesin mühüm iştirakçılarıdırlar. Siyasi sferada KİV və onunla bağlı olan yeni elektron informasiya mənbələri, kompüter texnologiyası, o cümlədən, getdikcə daha çox istifadə olunan internet əhalinin ən geniş təbəqələrinin siyasi prosesdə real iştirakına yol açmaq iqtidarındadır. Bununla KİV həm modernləşmə prosesində fəal şəkildə iştirak edir, eyni zamanda özü də modernləşmənin təsirlərinə məruz qalır.
- Müasir Azərbaycan şəraitində dövlət və KİV arasında qarşılıqlı münasibətlər ideoloji ehkamların aradan qaldırılmasından da keçir ki, bu da son nəticədə həmin əlaqələrin hüquqi müstəviyə sürüşməsini şərtləndirir

və beləliklə, dəqiq hüquqi əsaslandırma tələb edir. İnformasiya sferasının artan rolu cəmiyyətin formalaşmasında mühüm faktorlardan olaraq fəal şəkildə siyasi, iqtisadi, müdafiə və milli təhlükəsizliyin digər tərkib hissələrinə təsir göstərməkdədir.

- Dövlət informasiya siyasəti həm də KİV vasitəsilə reallaşır və cəmiyyətə mənəvi-siyasi təsir göstərir. Dövlət informasiya siyasətinin əsas istiqamətlərini KİV sahəsində siyasət, medianı tənzimləyən qanunvericilik, KİV-in öz informasiya siyasəti, KİV-dövlət informasiya siyasətinin qarşılıqlı münasibətləri təşkil edir.
- Dövlət informasiya siyasəti ölkənin milli təhlükəsizliyinin tərkib hissəsi olan informasiya təhlükəsizliyini; sosial informasiya sistemlərinin, informasiya resurslarının təhlükəsizliyini təmin edir; informasion-psixoloji təhlükələrə qarşı sipər yaradır, dövlətin, cəmiyyətin vətəndaşların normal fəaliyyəti üçün şərait yaradır;
- Dövlət informasiya siyasəti ənənəvi və yeni medianın yazılı və elektron KİV-nin texnoloji inkişafını təmin edir; İKT-nin KİV-ə tətbiqini, sosial medianın, internetin, bloqların reallaşmasına yardım edir, KİV və hakimiyyətə inamı möhkəmlədir.
- KİV özünün informasiya, tənqidi, nəzarətedici, sosiallaşma, rasionallaşma, humanitar funksiyalarını yerinə yetirməklə dövlət informasiya siyasətinin formalaşmasına və gerçəkləşməsinə təsir göstərir.

**Ədəbiyyat:**


1. Babayev Z. Yeni media yeni məkanda / Nəsir İmanquliyevin 100-illik yubileyinə həsr olunmuş "Azərbaycan jurnalistikası qloballaşma dövründə: qaynaqlar və perspektivə baxış" Respublika elmi-praktik konfransının materialları (21-22 dekabr 2011). Bakı: Şərq-Qərb, 2011, s. 171
2. Əliyev İ. İqtibaslar və təhlil. Bakı: Azərbaycan, 2006, s.328
3. Əliyev İ. "Mən jurnalistləri vətənpərvərliyə çağırıram". Bakı: "Apostrof" Çap evi, 2010, s. 271
4. Heydər Əliyev və mətbuat. Dörd cilddə. II c. Bakı: Nurlar, 2003, s. 640
5. Mehdiyev R. "Mətbuat və demokratiya" kitabına ön söz. Məqalələr toplusu /Buraxılışa məsul: R.Mehdiyev; Tərtib edəni və red.: Ə.Həsənov, Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1999, s.110
6. Məmmədli C. Jurnalistikanın müasir inkişaf meylləri. Bakı: Elm, 2006, s.374
7. Mustafayeva E. Bloqlar internetdə söz azadlığını ifadə forması kimi / Nəsir İmanquliyevin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan jurnalis-tikası qloballaşma dövründə: qaynaqlar və perspektivə baxış"

Respublika elmi-praktik konfransının materialları (21-22 dekabr 2011). Bakı: Şərq-Qərb, 2011, s.668

8. Niftəliyeva K. Qəzetin informasiya siyasəti və jurnalistin fərdi yaradıcılıq prinsipləri / Nəsir İmanquliyevin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan jurnalistikası qloballaşma dövründə: qaynaqlar və perspektivə baxış" Respublika elmi-praktik konfransının materialları (21-22 dekabr 2011). Bakı: Şərq-Qərb, 2011, s.668
9. Панферова В. Информационная политика в современной России // Социально-гуманитарные знания, 2005, № 5, с. 53-69.
10. KİV cəmiyyətin aynasıdır // http.www sia.az/aznews/social/65887.